**Əməkdaşlıq fəaliyyətləri**

- AQTA ilə Estoniya Respublikasının müvafiq qurumları arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində mütəmadi əməkdaşlıq həyata keçirilir.
- Estoniyanın qida təhlükəsizliyi sisteminin beynəlxalq standartlara və Azərbaycan Respublikasının milli qida təhlükəsizliyi sisteminə uyğunluğunu nəzərə alaraq, həmçinin aparılmış təhlillərə əsaslanaraq, Azərbaycan Respublikasının "Qida təhlükəsizliyi haqqında" Qanunundan irəli gələrək 2025-ci il 1 avqust tarixində Estoniyanın qida təhlükəsizliyinə nəzarət sisteminin ekvivalentliyinin tanınması barədə AQTA tərəfindən qərar qəbul edilmişdir. Nəticədə Estoniyanın yüksək riskli qida və yem məhsulları istehsal edən müəssisələri Agentlik tərəfindən əlavə qiymətləndirmə tədbirləri aparılmadan Estoniyada qeydiyyata alındıqdan və (və ya) təsdiq edildikdən sonra öz məhsullarını Azərbaycan Respublikasına ixrac edə biləcəklər.
- 2022-ci il 26–27 oktyabr tarixlərində AQTA-nın nümayəndə heyəti Estoniyada səfərdə olub. Səfər çərçivəsində AQTA-nın sədr müavini Estoniya Kənd Təsərrüfatı və Ərzaq Şurasının baş direktoru Urmas Kirts ilə görüşüb, qida təhlükəsizliyi sahəsində görülən işlər və yeni qanunvericilik barədə məlumat verib. Görüşlərdə nəzarət tədbirləri, informasiya sistemləri və ixrac-idxal prosedurları üzrə təqdimatlar təqdim edilib. Nümayəndə heyəti Muuga sərhəd nəzarət məntəqəsi və Estoniya Kənd Təsərrüfatı Tədqiqat Mərkəzində də olub, laboratoriya fəaliyyəti ilə tanışlıq aparılıb və gələcək əməkdaşlıq imkanları müzakirə olunub.
- 2022-ci il 14 fevral tarixində AQTA ilə Estoniya Kənd Təsərrüfatı və Ərzaq qurumunun baş direktoru Urmas Kirtsinin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib. Görüşdə qida təhlükəsizliyi, heyvan və bitki sağlamlığı sahələrində əməkdaşlıq, normativ-hüquqi bazanın formalaşdırılması, innovativ nəzarət və monitorinq üsulları, zərərvericilərdən azad zonalar və laboratoriyaların beynəlxalq standartlara uyğunlaşdırılması məsələləri müzakirə olunub.
- "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Estoniya Respublikasının Kənd Təsərrüfatı və Qida Şurası arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında saziş layihəsi"nin razılaşdırılması üzrə işlər aparılır.
- Estoniyanın müvafiq qurumları ilə qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində Kodeks Alimentarius Komissiyası, Bitki Mühafizəsi haqqında Beynəlxalq Konvensiya (İPPC), Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı (OİE) və digər aidiyyəti beynəlxalq və regional təşkilatlar çərçivəsində də mütəmadi əməkdaşlıq həyata keçirilir.